# Sumqayıt hadisələrini ermənilər törədiblər

**Böyük fransız yazıçısı Onore de Balzakın belə bir deyimi var: “Həqiqət açıq içkidir, dadı yaxşı deyil, amma sağlamlığı bərpa edir”. Qafqaz regionunu uzun illərdir terrora məruz qoyan ermənilər də həqiqəti eşitməyə və səhvlərindən nəticə çıxarmağa, bir sözlə, separatçılıq xəstələyindən müalicə olunmağa həvəs göstərmirlər. Əksinə, Sumqayıt təxribatını, Xocalı soyqırımını törədən ermənilər faktları saxtalaşdırmağa can ataraq beynəlxalq ictimayyəti öz yalanlarına inandırmağa çalışırlar. Belə saxtakarlıq fəaliyyətilə Ermənistan Azərbaycana qarşı yürütdüyü separatçılıq və təcavüzkar siyasətinə bəraət qazandırmağa cəhd göstərir. Lakin, necə deyərlər, həqiqət Günəş kimidir, ovcunda gizlədə bilməzsən. Xocalı soyqırımı kimi, Sumqayıt hadisələri də erməni təxribatının “məhsuludur” və bu insanlığa sığmayan əməlləri başqalarının ayağına yazmaq cəhdləri heç bir fayda verməyəcək.**

Bu, bir faktdır ki, Sumqayıt hadisələri erməni separatçılarının əlində Azərbaycana qarşı yönəldilmiş informasiya silahı olmuşdu. Erməni tərəfi öz uydurmalarına söykənərək indi də Sumqayıt hadisələri barədə reallığa uyğun olmayan məlumatlar səsləndirir. Üstəlik, şəhərdəki qarətlərin məhz ermənilər tərəfindən törədildiyini təsdiqləyən çoxsaylı istintaq dəlillərini qəbul etmək istəmir və qulaqlarını yumaraq yalanlar üyütməyə can atırlar. Aradan 31 il keçməsinə və ötən müddət ərzində Sumqayıt hadisələrinin arxasında hansı qüvvələrin dayandığı barədə hüquq-mühafizə orqanlarının materialları ictimaiyyətə açıqlanmasına baxmayaraq, mənfur qonşularımız köhnə vərdişlərindən əl çəkmir, özlərini regionun “yazıq və həmişə təcavüzə məruz qalmış xalqı” kimi qələmə verməyə cəhd göstərirlər. Təbii ki, Sumqayıt hadisələrinin arxasında hansı mənfur qüvvələrin dayandığı da heç kimə sirr deyil.

Sumqayıt hadisələrinin məhz Mixail Qorbaçovun keçmiş SSRİ-də hakimiyyət başında olduğu dövrə təsadüf etməsi qeyri-adi qarşılanmır. Bu gün məktəb şagirdinə də məlumdur ki, 20 Yanvar faciəsində çoxsaylı azərbaycanlının qətlində birbaşa günahı olan M.Qorbaçov erməni separatçılarına və millətçilərinə kömək edirdi. Əlbəttə, bu, bir faktdır ki, SSRİ-nin ilk və sonuncu prezidenti erməni ideoloqlarının təsiri altında belə qeyri-qanuni əməllərə yol verirdi. Lakin erməni separatizmini dəstəkləməklə M.Qorbacov özünün şəxsi siyasi məqsədlərini də güdürdü. Məsələn, 1985-ci ildə M.Qorbaçov 24 aprel gününü “Erməni soyqırımı günü” kimi elan etməyə cəhd göstərmişdi. Belə bir addımı atmaqla o, ABŞ-a yarınmaq istəmişdi. Lakin Sov. İKP MK Siyasi Bürosunun əksər üzvü qondarma erməni soyqırımı gününü elan edilməsindən SSRİ–Türkiyə münasibətlərinin ciddi zərər görəcəyini nəzərə alaraq, M.Qorbaçovun bu sərsəm ideyasına dəstək verməmişdi.

M.Qorbaçovun “siyasi oyununda” növbəti gediş ümummilli lider Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılması olmuşdu. Bütün bu “fəaliyyətdən” belə nəticə çıxarmaq olur ki, Sumqayıt hadisələri Kremlin o zamankı rəhbərinə və onun əlaltılarına Dağlıq Qarabağ münaqişəsində əl-qollarını açmaq fürsəti vermək üçün törədilmişdi. Erməni separatçıları da bundan istifadə edərək, Dağlıq Qarabağ regionunun Azərbaycandan qoparılmasına hesablanmış iyrənc prosesə start vermişdilər. Bakıya qarşı güclü informasiya kampaniyası aparan mərkəzdən dəstək alan erməni terrorçuları Azərbaycanın tarixi torpaqlarında vəhşiliklər törətməyə girişmişdilər. İnformasiya kampaniyasının əsas məqsədi də bundan ibarət olmuşdu ki, dünya ictimaiyyəti azərbaycanlıların “vəhşiliklərini” görsün və iki qonşu xalqın bir dövlətin tərkibində yaşamasının mümkün olmadığını anlasın. Xatırladaq ki, keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin o vaxtkı sədri N.Kryuçkov da hadisələrin Moskvadan idarə olunduğu faktını təsdiq etmişdi. Ermənistanın tanınmış siyasi xadimlərindən Paruyr Ayrikyan isə vurğulamışdı ki, Sumqayıt hadisələri birbaşa Moskva tərəfindən təşkil olunmuşdu.



Zərərçəkən Mejlumyan istintaqda onu zorlamış Eduard Qriqoryanı göstərir.

Fransanın məşhur dövlət xadimi və diplomatı Şarl Moris de Taleyran yazırdı ki, “Böhtandan da qorxulu silah var: bu silah həqiqətdir”. Ermənilərin böhtan və yalanlarına qarşı təsdiqlənmiş sübut və dəlillər var. İstinaq yolu ilə təsdiq olunmuşdu ki, erməni agenturasının təşkil etdiyi “qara plaşlı” adamlardan ibarət qrup yerli camaata spirtli içkilər, güclü təsiredici həblər, dəmir parçaları və s. paylayırmış. Məlum olduğu kimi, bu hadisələr bir qrup azğınlaşmış dəstə tərəfindən törədilmişdi. Baş vermiş kütləvi iğtişaşlar 1959-cu il təvəllüdlü, əvvəllər 3 dəfə məhkum olunub üst-üstə 9 il 2 ay 13 gün azadlıqdan məhrumetmə cəzası çəkmiş qatı cinayətkar, milliyyətcə erməni olan "Paşa" ləqəbli Eduard Robertoviç Qriqoryan, onun Albert və Ernis adlı daha iki qardaşı, Dağlıq Qarabağdan xüsusi tapşırıqlarla gəlmiş emissarlar və DTK-nın agentləri tərəfindən təşkil olunmaqla bilavasitə icra edilmişdi. Fevralın 27-də öz dəstəsi ilə Sumqayıtda Ermənistanda azərbaycanlılara qarşı zorakılıqlara etiraz mitinqlərinin keçirildiyi meydana gedərək orada özünü “Qafandan gəlmiş azərbaycanlı” kimi təqdim etmiş E.Qriqoryan Qafanda ermənilərin azərbaycanlıları kütləvi şəkildə qırdığı barədə danışaraq kütləni Sumqayıtda yaşayan ermənilərdən qisas almağa çağırmışdı. Daha sonra o, “məndə ermənilərin siyahısı var, hara getmək lazım olduğunu bilirəm” – deyərək, təxminən 100 nəfərlik dəstə ilə erməni mənzillərində talançılığa başlamışdı.

İstintaq materiallarından bu da məlum olmuşdu ki, Sumqayıt hadisələri zamanı bir çox azərbaycanlı ailəsi təhlükəyə baxmayaraq, erməni qonşularını quldur basqınlarından gizlətmişdi. Bu fakt erməni separatçılarının “iki xalqın bir dövlətin tərkibində yaşamasının mümkünsüzlüyü” barədə ortalığa atdıqları sərsəm iddiani alt-üst etmişdi. Bundan başqa, E. Qriqoryanın həmin dəstənin ən fəal rəhbəri olması şahid ifadələri əsasında da sübut olunmuşdu. Dağlıq Qarabağdan olan emissarlar vəhşi instinktlərə sahib Eduard Qriqoryanı ətraflı təlimatlandırmış, ona Sumqayıtda yaşayan və separatçıların yaratdıqları "Qarabağ" və "Krunk" təşkilatlarına pul köçürməyən ermənilərin siyahısını və dəqiq ev ünvanlarını vermiş, aqressivliyi artırmaq məqsədilə iğtişaş iştirakçılarına paylanması üçün “Paşa”nı psixotrop dərmanlar və spirtli içkilərlə təmin etmiş, hadisələr zamanı isə Eduard Qriqoryan və onun qardaşı Albert Qriqoryanla birlikdə camaata soyuq silah kimi istifadə olunan armatur parçaları paylamışdılar. Belə mənfur planın həyata keçirilməsi nəticəsində Eduard Qriqoryan Sumqayıt hadisələri zamanı 5 ermənini şəxsən öldürmüş, hətta Marina və Karina Mejlumyanlar adlı erməni qızları da daxil olmaqla, ümumilikdə, 8 erməni qadınını zorlamışdı. İttiham aktları bu quldur erməninin dəstə başçısı kimi törədilmiş bütün cinayətlərdə əlinin olduğunu sübuta yetirir.

M.Qorbaçovun Sumqayıt hadisələri ilə bağlı mənfur əməlinin biri də bu olmuşdu ki, onun göstərişi ilə şahid ifadələri saxtalaşdırılmışdı. Mitinqdə çıxış etmiş azərbaycanlıların əksəriyyəti “ekstremist” kimi istintaqa cəlb olunmuşdu. Halbuki həmin azərbaycanlılar mitinq iştirakçılarını təxribatlara uymamağa səsləmişdilər. İstintaq zamanı Sumqayıt erməniləri ifadə vermişdilər ki, azərbaycanlılar tərəfindən xilas edilmişdilər. Lakin bu fakt mərkəz tərəfindən susqunluqla qarşılanmışdı. SSRİ Prokurorluğu Sumqayıt hadisələrində azərbaycanlıların günahkar olduqları ehtimalı üzərində dayanmağa meyil göstərmişdi.

Bundan başqa, prokurorluq Sumqayıt hadisələrinin sovet xüsusi xidmət orqanları tərəfindən törədilməsi barədə məlumatları da yoxlamaqdan imtina etmişdi. Əksinə, SSRİ Prokurorluğu Sumqayıt hadisələrini törədənlərin kimliklərini cidd-cəhdlə ört-basdır etməyə çalışmışdı. Bununla yanaşı, SSRİ Prokurorluğu Sumqayıt təxribatında Qarabağ ermənilərinin iştirak erməsi faktını da nəzərə almamış və nəticədə müqəssir qismində yalnız azərbaycanlıları və yeganə erməni olan E.Qriqoryanı istintaqa cəlb etmişdi. E.Qriqoryan da məcburiyyətdən istintaqa cəlb olunmuşdu, çünki çoxsaylı şahid ifadələrində onun qarətlərdə və zorakılıqlarda yaxından iştirak etməsi barədə məlumatlar öz əksini tapmışdı. Buradan belə nəticəyə gəlmək olur ki, SSRİ Prokurorluğu mərkəzin göstərişlərinə və maraqlarına uyğun hərəkət etmiş və Sumqayıt hadisələrinin arxasında məhz M.Qorbaçovun və onun əlaltılarının dayandıqlarını təsdiqləyən dəlillərin olmamasına çalışmışdı.



Məntiqli insanlar anlayırlar ki, Sumqayıt hadisələrini törədənlər iki xalqı etnik zəmində üz-üzə gətirmək istəmişdilər. Məşhur yazıçı Eduard Topol da Sumqayıt hadisələrinin təxribat olduğuna inandığını belə açıqlamışdı: “Bu təxribatdır. Buna əminəm. Öz jurnalistik tərcümeyi-halıma Sumqayıtdan başlamışam. Ölkənin hər yerindən buraya hər cür insanlar axışıb gəlmişlər. Mən qəzetdə işləyirdim. Bu gün erməni haqqında yazırdım, sabah azərbaycanlı haqqında... Eşidəndə ki, hər şey Sumqayıtdan başlandı, talanlar, qırğınlar – dəhşət, qarabasma məni götürdü. Mən Sumqayıtda işləyəndə dağ turizmi və alpinizmlə məşğul olurdum. Yadımdadır, sovet hakimiyyətinin 50 illiyi idi, ya hansısa başqa bir bayram idi, biz piyada Dağlıq Qarabağa yola düşdük. Bütün Qarabağı gəzdik. Hər dəfə meşəni keçib kəndə yaxınlaşanda, sakinlər görürdülər ki, bir dəstə adam gəlir... Kəndə çatarçatmaz, kənd qadınları – fərqi yox idi, bu azərbaycanlıların kəndi idi, yaxud ermənilərin – bizi əllərində çaxır dolu bardaqlarda və çörəklə qarşılayır, bizə həm Azərbaycan dilində, həm də ermənicə xoş gəldin deyirdilər. Heç bir düşmənçilik yox idi. Mən bunu təsdiq edirəm”.

Politoloq, “Naş sovremennik” jurnalının daimi müəllifi Kseniya Myalo da Sumqayıt hadisələrinin təxribat olduğuna əmindir: “Durğunluq adlanan dövrün xarakterik göstəricisi olan ağırçəkili sakitlikdən, sükunətdən bir göz qırpımında kəskin dinamikaya, çevik hərəkətlərə keçmək üçün çox güclü təsirə malik olan vasitələr tətbiq etmək lazım gəlirdi və belə vasitələr tapıldı. Bu, ilk növbədə, bandit aksiyalarının keçirilməsi üçün şüurlu surətdə cinayətkarların, ələlxüsus, ən qatı canilərin geniş şəkildə cəlb olunmasıdır. Onların əsas vəzifəsi ilk qanı tökməkdir, həm də elə üsullarla ki, insanları, əhalinin əksər hissəsini vahimədən donub qalmağa məcbur etsinlər. Belə də oldu. Sumqayıtda, Fərqanədə, Oşda...”.

Bu gün ermənilər sağlam məntiqə zidd olan sərsəm bəyanatlar səsləndirərək, Azərbaycanı “Sumqayıt işi”ni saxtalaşdırmaqda günahlandırmağa çalışırlar. Əlbəttə ki, belə iddialar ancaq gülüş və qəzəb doğurur. Ən azından ona görə ki, “Sumqayıt işi” keçmiş SSRİ Prokurorluğu, rus, ukraynalı və digər millətlərin nümayəndələrindən ibarət müstəntiqlər tərəfindən aparılmış və istintaq hərəkətlərində Sumqayıt hadisələrində E.Qriqoryanın fəal rolu öz əksini tapmışdı. Bu isə o deməkdir ki, Sumqayıt hadisələri erməni millətçilərinin məkrli planlarının nəticəsi idi və əsas səbəb də ermənilərdə azərbaycanlılara qarşı nifrət oyatmaqla Dağlıq Qarabağda separatçılığa başlamaq və muxtar vilayəti Ermənistana birləşdirməyə çalışmaqdan ibarət idi.

Daim saxtalaşdırdıqları tarixi iddiaların kölgəsində gizlənmiş erməni millətçiləri və ideoloqları bu gün də həqiqətləri qəbul etməyərək, işğalçı və təcavüzkar siyasəti dəstəkləyirlər. Həqiqət budur ki, Azərbaycan həmişə tolerant ölkə kimi tanınmışdır və Sumqayıt hadisələrinin arxasında da o vaxtkı SSRİ rəhbərliyi və erməni separatçıları dayanmışdılar. Bu həqiqəti Ermənistanın birinci prezidenti olmuş Levon Ter-Petrosyan da öz müsahibələrinin birində etiraf etmişdi. Onun sözlərinə görə, Sumqayıt hadisələrindən sonra Azərbaycan xalqı şok vəziyyətinə düşmüşdü və əgər ölkə rəhbərliyi bu məqamdan istifadə edib Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar çıxarsaydı, Azərbaycan xalqı buna etiraz edə bilməyəcəkdi. Bəli, Levon Ter-Petrosyanın bu sözləri bir daha təsdiqləyir ki, Sumqayıt hadisələri ermənilərə öz separatçılıq aksiyalarını həyata keçirməkdən ötrü lazım olmuşdur. Həmişə olduğu kimi...

*Səbuhi MƏMMƏDOV,*
*“Xalq qəzeti”*